# TARİXƏ SEVGİ, YURDA ÖYGÜ...

Hər bir yazıçının yaradıcılığı boyu özünə borc bildiyi, mütləq yazmalı olduğu bir yazısı var. Yazıçıların təbiətindən asılı olaraq bu yazı hər kəsdə bir cür yazılır. Eləsi olur ki, bu yazını milli ruhu özündə ehtiva edən əsərdə görür, bir başqası isə sentimental duyğularını yazıya gətirməkdə. Elə sənətkarlar da var ki, varlığında daşıdığı yaddaş hekayətlərini özünə əmanət eləyir. Nə vaxtsa mütləq yazacağına inanır. Elə özünə inana-inana da vaxtı ötürür, əli qələm üstündə əsəndə kövrək duyğularla o istəyi yada salır. Ayrı-ayrı epizodları xatirə kimi müsahib olana, maraq göstərənə danışır.

Şəfəq Nasir doğulub böyüdüyü məkanı, yaddaşında qoruduğu poetik əhvalda dəfələrlə yazıya gətirib. Ancaq hər dəfə də ona elə gəlib ki, ürəyinin başına sancılmış tikanı hələ də çıxarmayıb. Çünki o, havası ilə, suyu ilə böyüdüyü mənəvi mühitinin Beyləqan dünyasını ən müxtəlif mövzularda belə xatırlayır, onun tarixinə ekskurslar edir. Zaman-zaman düşüncə məkanının mərkəzinə gətirdiyi Beyləqan obrazı ilə Azərbaycan obrazını qoşa görür, bir çox hallarda bu obrazları bir-birinə qovuşdurur. Onun dünyasında tarixi Beyləqan elə tarixi Azərbaycan kimi görünür.

Düşünmək olar ki, Beyləqana onun bu sevgisi məhz bu yerdə doğulub böyüməsi ilə bağlı deyil. Daha çox Beyləqanın zəngin tarixi keçmişi onun üçün belə Azərbaycan kimi görünür. Təsadüfi deyil ki, "Beyləqanın güllü yazı" (1991) kitabında bir yazıçı aləminin yurdu özündə ehtiva edən sirləri kifayət qədər dolğunluğu ilə açılır. Əlbəttə, bu barədə bir qədər daha əhatəli, daha geniş danışmaqla yazıçının tarixi keçmişimizə münasibətinə güzgü tutmaq olardı.

Şəfəq Nasirin Beyləqanla bağlı yazılarının məğzinə vardıqca ayrı-ayrı düşüncələri, esseləri, tarixi keçmişimizin qanlı səhifələrini əks etdirən lövhələri gözlərimin önünüdən keçirdikcə daha çox inandım; Şəfəq Nasirin mənəvi mühitində bir Beyləqan romanı "Mən burdayam, məni üzə çıxar, yazıya çevir, varlığının həbsxanasından insanların işıqlı dünyasına gətir", - deyir.

Yazıçı üçün yaddaşdakı saxlanc həyati müşahidələr və ən əsası, tarixi bilgilər xammaldır. O, bu xammalı müəyyən xətt ətrafına yığmalı, insan taleləri ilə müvazi olaraq yazıya gətirməlidir. Əslində, Şəfəq Nasirin Beyləqan ətrafındakı bilgiləri - istər tarixi, istərsə də müasir dövrü ilə bağlı məlumatları sadəcə ruha gətirmək, ona can vermək tarixi Beyləqanın taleyində rolu olan şəxsiyyətləri obrazlaşdırmaqla bu "Beyləqan" romanı həyata vəsiqə ala bilərdi. Oxucu soruşa bilər ki, reallıqda olmayan əsər haqqında nə üçün danışıram? Cavabım isə budur ki, dediklərim ədəbi tənqidi düşüncənin can yanğısı kimi yazıya gəlir. İstedad var, xammal var; üstəlik sənətkarlıq təcrübəsi də kifayət qədər yetkindir. Şəfəq Nasirin "Ulu yurdum Beyləqanım" tarixi etnoqrafik düşüncələrindən ayrı-ayrı parçalara diqqət eləmək bəs edər ki, müəllifin ulu yurdu taleyi ilə nə qədər bağlı olduğunu aydın təsəvvür edə biləsən. Qədim Beyləqanın tarixi taleyi, faciələri, ağır günləri müəllifin can yanğısı ilə yazıya gəlir. Bəzən elə məlumatlar ortaya çıxır ki, hətta məlumatlı oxucu üçün də yeni, sirr altından çıxmış kimi görünür. Farsların Beyləqanı "Uren" adlandırması da bu cəhətdə maraq doğurur. Hər halda Beyləqan özünün milli simasını tarixi dəyərlərini ən qəddar işğallar altında belə qoruyub-saxlayıb. Xüsusilə, Eldəgizlər dövrünün Beyləqana doğma münasibəti şəhərin yüksəlişində mühüm əhəmiyyət kəsb edib. Və Şəfəq Nasirin özü də Beyləqanla bağlı həmin səhfələri xüsusi sevgi ilə tərənnüm edir.

Mənə elə gəlir ki, əgər Şəfəq Nasirdən soruşsaq ki, "Ulu yurdun Beylənım" yazısında məqsəd nədir, onda tərəddüdsüz olaraq belə bir cavab verərdi: "Tarixə sevgi olmadan, keçmişin sirrlərini bilmədən, yurdun bu gününü sevmək mümkün olmazdı. Çünki insan aləminin mürəkkəblikləri içərisində o da var ki, tarixini bilmədiyin yeri-yurdu özününkü hesab edə bilməzsən". Şəfəq Nasir Beyləqan qalasının möhkəmliyi haqqında təsəvvür yaratmaq üçün tarixə istinad edir. Ərəb işğalının qəddarlığı, insanlara qarşı qeyri-insani davranışları Beyləqanın tarixi taleyində çox dəhşətli səhifələr açıb. Bir sözlə, ərəblər Beyləqanın tarixi taleyini dəyişiblər. Daha sonrakı zamanlarda başqa işğallar da Beyləqana zərbələr vurub. Ən ağır zərbələr isə monqolların dağıdıcı hücumları ilə bağlıdır. Eni 11 metr, hündürlüyü 15 metr möhtəşəm qala divarları da bu dağıdıcılıq qarşısında davam gətirə bilmir. Şəfəq Nasir bu məqamları elə isti, elə canlı yazır ki, sanki özünün gözləri qarşısında Beyləqan evinin dağıldığını görür. Və bircə gücü ona çatır ki, Beyləqana öz sevgisi ilə sanki düşməndən qisas alır: "Qala divarını dağıtmaq çox çətin olur. Əvvəlcə istəyiblər ki, mancanaqla dağıtsınlar, amma mancanağa qoyub atmağa bir daş da tapmayıblar. Qoşun başçılarından biri məsləhət görüb ki, palıd, tut, çinar ağaclarından metrə boyda doğrayıb içini boşaldıb barıtla doldursunlar. Sonra divarın dibini qazıb, həmin içi dolu kəsik ağacları qazılmış yerlərə doldurub od vursunlar. Bir də ağac kötüklərindən mancanağa qoyub divara atsınlar. Beləcə də eləyirlər, qala divarını dağıdıb şəhərə daxil olurlar. Bu hadisə, yəni Beyləqan şəhərinin dağıdılıb yandırılması 1221-ci ilin oktyabrnoyabr aylarında baş veribmiş". Bu, mətndən göründüyü kimi, Şəfəq Nasir dövrün müharibə qaydalarını, hücumların miqyasını, qəddarlığın əndazəsini dəqiqliklə təsəvvür edir. Bircə o qəlır ki, düşmənin şəhərə daxil olması zamanı yerli əhalinin müqavimətinə görə qılıncdan keçirilməsi və bu zaman insanların fəryadlarının ərşə qalxması... və oxucu istər-istəməz Şəfəq Nasirin qələmi saxladığı məqamdan sonrakı zamanı öz düşüncəsində yaşayır: "Beyləqanı zorla aldıqdan sonra düşmənlər kiçik-böyük, arvad-uşaq - hamını qılıncından keçirmişlər. Monqolların vəhşilikləri o yerə çatıb ki, hamilə qadınların qarınlarını yarıb cağaları çıxarıb çığırda-çığırda öldürmüşlər. Şəhəri talan eləyib sonra da yandırmışlar. Qan düşmənlərin gözünü elə tutub ki, adamlardan sonra heyvanları, itləri də qılıncdan keçiriblər". Şəfəq Nasir oxucusunu həmin zamana çəkib aparmaqla bu günün Beyləqanının hansı kök üstündə bərqərar olduğunu yeni nəslə çatdırır. Maraqlıdır ki, Şəfəq Nasir Beyləqanla bağlı düşüncələrindəki ayrı-ayrı hadisələri, tarixi bilgiləri və arxeoloji tədqiqatların nəticələri ilə əsaslandırır.

"Örənqala"... Yazıçı Örənqala adının üstündən sükutla keçə bilməzdi: "gözəl Beyləqan şəhəri dağıdılıb viran ediləndən sonra xarabazarlığa çevrildi... Yollar bərbad oldu. Şəhərə gələn Gavur arxı dağıdıldı, suyu kəsildi. Aran düzü sudan məhrum oldu. Beyləqan şəhərinin sağ qalan əhalisi sulu yerlərə - həyat, yaşayış olan yerlərə köçüb getdilər". Tarixin qanı süzülən bu cümlələri oxuduqca, gözlərimizin önündən bugünki Qarabağ xarabazarlıqları keçir. Əgər yazıçının təsvirindən sonra oxucu nəfəs alırsa və bu nəfəsalma zamanı öz həyəcanları ilə baş-başa qalırsa, demək, yazıçı öz məqsədinə çata bilib. Əgər Qarabağ təəsüratları bütün ağrısı və faciəsi ilə birgə təsəvvürümüzdə canlanır və haqqını istəyirsə, demək, yazıçı da döyüş mövqeyindədir. Yazıçının əsas missiyası odur ki, oxucu düşüncəsini uzunmüddətli yuxudan oyada bilsin, ona hərəkət verə bilsin. Yazıçının təsvirindəki Beyləqanı oxuduqca Qarabağın bu gün qanı süzən, qaysaq tutmayan yaralarını dörd gözlə seyr edirik: "Beyləqan insan nəfəsindən, insan hənirindən uzaq düşdü. Torpağı susuzluqdan cadar-cadar oldu. Çoxömürlü ağaclar, bağlar da susuzluqdan quruyub məhv oldular. Beyləqan - aranadağa köçərilərin qəbiristanlığına çevrildi". Şəfəq Nasirin sözündə canlanan Örəmqala bu gün də tarixi məkan kimi xüsusi maraq doğurur. Bələdçilərin nitqi ilə bu yerlərə səyahətə gələn yadellilərin düşüncə kitabına çevrilir. 1403-cü ildə Teymurləngin təşəbbüsü ilə bərpası nəzərdə tutulan, ancaq başa varmayan şəhər Örəmqala adı ilə ağrı kitabı kimi yaşayır.



"Mil düzü"... Müəllifin "Mil" sözünə verdiyi şərh bir qədər mübahisəli görünsə də xalq etimologiyası kimi maraqlıdır. Müəllif "Mil" sözünü ərəblərin təfəkkürü ilə bağlayır. Ancaq bizə elə gəlir ki, "Mil" sözünün düm-düz mənası düzün görünüşdəki təsəvvürünü təmin edir. Abasqulu ağa Bakıxanov da "Gülüstani-İrəm"də Beyləqanın tarixinə münasibət bildirir. Mil düzünün şöhrətli günlərini Şəfəq Nasir sevgi ilə yazıya gətirir.

Şəfəq Nasirin "Ulu yurdum Beyləqanım" tarixi etnoqrafik qeydlərində Beyləqanı biz canlı muzey kimi görürük. Bu muzeyin tarixi mahiyyəti Beyləqan Tarix-Diyarşünaslıq muzeyində də əşyayi-dəlillər kimi qorunub, saxlanılır. Bu muzeydəki əşyalar, qədim sənətkarlıq nümunələri həm Azərbaycanın tarixi keçmişinin və həm də konkret olaraq Beyləqanın qədimliyinin zənginliyindən xəbər verir. Və bu zənginliyin sübutu kimi qavranılır:

> "Tarixçilərimizin araşdırmaları və arxeoloqlarımızın axtarışlarının maraqlı nəticələri və dəlilləriylə döyə-döyə tanış olduqca duyursan ki, bu muzeyi yeni tapıntılarla daha da zənginləşdirmək mümkündür. Təki buna ürəyimizdə böyük həvəsimiz və ulularımız uyuyan bu torpağa məhəbbətimiz tükənməsin. İnanıram ki, bu istiqamətdə işlər davam etdiriləcəkdir. Bu, o torpaqda doğulan balarımızın yaşadıqları Vətən torpağının tarixini bilmək, öyrənmək, həm də yurdunu sevmək baxımından əhəmiyyətlidir". Bu mətndə bir ziyalı narahatlığı, yazıçı qayğılanması var. O, istəyir ki, Beyləqanın tarixi şöhrətinin bərpası üçün, müxtəlif istiqamətlərdə, ardıcıl işlər görülsün. Beyləqanın zəngin təbiəti olub, florası, faunası ayrı-ayrı zamanlarda səyahətçilərin diqqətini cəlb eləyib. Təkcə onu qeyd etmək lazımdır ki, Beyləqan dəvələri dillə deyilərdi. Bir vaxt tarixi Beyləqanın darvazasından yüklə keçib şəhərə daxil olan dəvə karvanları, elə yüklə də Beyləqan varı ilə barınaraq uzaq ölkələrə yol alırdı.

Şəfəq Nasir təbiətlə bağlı qayğılanmağında da ziyalı narahatlığını qoruyub saxlayır: "Vaxtilə Mil düzündə ceyranlar sürü ilə gəzərdilər. Onları hürküdəndə də saymnaq olmazdı. 60-cı illərə qədər bu yerlər onların oylağı idi. Sonralar nəzarətsizlik və gecəgündqüz ovlamaq nəticəsində azalaraq kökü kəsilməyə başladı. Hazırda "Ağ Göl"də talalarda az miqdarda mühafizə olunur." Beyləqan həm də böyük zəhmət meydanı olub. Sevil Qazıyeva, Sərdar İmrəliyev və digər adlı-sanlı Əmək qəhrəmanları Milə şöhrət gətiriblər. Bütün bunları Ş.Nasir halal zəhmətin insan taleyindəki dəyəri kimi qiymətləndirir.

Ş.Nasir Beyləqanla bağlı toponimik müşahidələrini beyləqanlıların uzaq keçmişdən bəri məişətlərilə bağlı adət-ənənə, həyat tərzi motivlərini də yazıya uğurla gətirir, yer-yurd adlarında tarixi izlər görür.

"Ulu yurdum - Beyləqanım" Azərbaycanın şbhrətli tarixi olan Mil düzünə sevgi nəğməsidir. Şəfəq xanım bu sevgi nəğməsini tarixə sevgi, yurda öygü kimi oxuyur.

***Əli Rza XƏLƏFLİ,***
***21.06.2020***